Səh. 2 Ümummilli ziddiyət – Azər Musaoğlu
Səh. 5 Avtobusla səyahət mədəniyyətsizliyi – Çiyalə Osmanova
Səh. 6 Dövrü dəyişən insan – Elvina Hacıyeva
Səh. 6 Qınından çıxıb qınını bəyənməmək – Validə Fətullayeva
Səh. 3 Yalançı cənnət – Afiq Muxtaroğlu
Səh. 4 TAMAR TSANAVA: "REGİONLARDA YAŞAYAN MÜƏLLİMLƏR TEZ-TEZ MƏNƏ YAZIRLAR Kİ...
Səh. 7 Gülüşün estetikası – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 FEVRAL 2024-CÜ İL
№ 03 (198)


# Yeni YOL


Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## GÜRCÜSTANIN MÜDAFİƏ NAZİRİ TÜRKİYƏ SƏFİRİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın müdafiə naziri İrakli Çikovani Türkiyə Cümhuriyyətinin Tbilisidəki səfiri Ali Kaan Orbay ilə tanışlıq görüşü keçirib. Bu barədə Gürcüstan Müdafiə Nazirliyi məlumat yayıb.

Görüşdə Gürcüstanın Türkiyə Cümhuriyyəti ilə strateji tərəfdaşlığı, müdafiə və regional təhlükəsizlik sahəsində ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub. Gürcüstan Müdafiə Qüvvələrinin inkişafı prosesinə Türkiyənin göstərdiyi mühüm dəstək, o cümlədən hərbi təhsil və birgə təlimlər, müxtəlif istiqamətlərdə maddi-texniki yardımlar da diqqət mərkəzində olub.

Söhbət zamanı əməkdaşlığın gələcək perspektivləri də nəzərdən keçirilib.

## HÖKUMƏTİN EHTİYAT FONDUNDAN GÜRCÜSTANIN MÜSƏLMAN İCMASINA 800 MİN LARİ AYRILIB




Gürcüstan hökuməti keçmiş sovet imperiyasının ölkədəki dini qurumlara vurduğu mənəvi ziyanın qarşılanması məqsədilə dini icmalara bir milyon lari vəsait ayırıb. Gürcüstanın Dini İşlər üzrə Dövlət Agentliyi hökumətin ehtiyat fondundan ayrılan bu yardımı ölkənin dini icmaları arasında bölüşdürüb. Bu barədə ölkənin Dini İşlər üzrə Dövlət Agentliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, vəsait sovet dövründə dini icmalara dəymiş mənəvi zərərin qismən kompensasiyası üçün nəzərdə tutulub. Həmin vəsaitin 800 min larisi islam dini icmasına çatacaq.

Qalan vəsaitin 100 min larisi Gürcüstan ermənilərinin apostol xristian icması, 50 min larisi Gürcüstanın Roma katoliklərinin xristian icması, 50 min larisi isə Gürcüstan yəhudi icması üçün nəzərdə tutulub.

Qeyd edək ki, 2024-cü ildə Gürcüstanda dini icmaların maliyyələşməsi üçün dövlət büdcəsindən 6,5 milyon lari vəsait ayrılıb. Gürcüstan hökuməti 2023-cü ildə dini icmalara yardım məqsədilə 5,5 milyon, 2022-ci ildə isə 4,5 milyon lari məbləğində vəsait ayırmışdı.

Xatırladaq ki, Gürcüstan əhalisinin 11 faizə yaxınını müsəlmanlar təşkil edir.

## GÜRCÜSTAN PARLAMENTİ YENİ HÖKUMƏTİN TƏRKİBİNİ TƏSDİQLƏYİB



Gürcüstan parlamenti fevralın 8-də yeni hökumətin tərkibini və qarşıdakı illər üçün fəaliyyət proqramını təsdiq edib.

Parlamentin 84 deputatı yeni hökumətin və proqramın lehinə, 10 deputatı isə əleyhinə səs verib.

Parlament Baş nazir vəzifəsinə İrakli Kobaxidzenin namizədliyini təsdiqləyib.

Yeni hökumətdə mədəniyyət və idman naziri Tea Tsulukiani, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili, xarici işlər naziri İlia Darçiaşvili, maliyyə naziri Laşa Xutsişvili, regional inkişaf və infrastruktur naziri İrakli Karseladze, ədliyyə naziri Rati Breqadze, daxili işlər naziri Vaxtanq Qomelauri, müdafiə naziri İrakli Çikovani, ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Otar Şamuqia, təhsil, elm və gənclər naziri Giorgi Amilaxvari, Gürcüstanın işğal olunmuş ərazilərindən məcburi köçkünlər, əmək, səhiyyə və sosial müdafiə naziri Zurab Azaraşvili və barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Tea Axvlediani olacaq.

Fevralın 12-də isə Baş nazir İrakli Kobaxidzenin sədrliyi ilə Gürcüstanın yeni hökumətinin ilk iclası keçirilib.

Hökumət administrasiyasının məlumatına əsasən, iclasda bəzi kadr məsələlərinə baxılıb. Baş nazirin birinci müavini vəzifəsinə iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili təyin edilib. Mədəniyyət və idman naziri Tea Tsulukiani və müdafiə naziri İrakli Çikovani isə Baş nazirin müavinləri təyin olunublar.

Mixail Peikrişvili hökumətin Strateji Kommunikasiyalar Departamentinin rəhbəri olacaq.



# ÜMUMMİLLİ ZİDDİYƏT

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

İndi hansına inanasan, hansını şüar edib yaşayasan, hansına həyatını həsr edəsən, hansının arxasıyca gedəsən, hansından ilham alasan, hansını bədəninə tatuaj etdirəsən?.. Gah deyir: palaza bürün, elnən sürün; gah da deyir: el üçün ağlayan iki gözündən olar...

Görəsən, bu qədər ziddiyyətli kodları şüuraltında daşıyan ikinci başqa millət varmı? Özümüzü, sözümüzü dərk edəndən ta qocalıb başımızı, yaddaşımızı itirənə qədər qulaqlarımıza sırğa edilən, nəsildən nəslə, ağızdan ağıza ötürülən bu kəlləmayallaq sözləri, bu ziddiyyətli fikirləri daşımağa, yaxşı ki, beyinlərimiz dözür, “error” vermir.

Əvvəla, mən, sən, o palaza bürünüb elnən sürünsə, bəs kim bizim halımıza ağlayacaq, kim bu sürünməkdən illərin, izlərin tozunu, torpağını canına hopdurmuş əski palazları yırtıb çıxacaq, kim bizi ayağa qaldıracaq? Axı palaza bürünəndə ayağa qalxmaq mümkün olmur, əlin-ayağın bağlanır, edə biləcəyin yeganə hərəkət elə sürünmək olur, o da, əgər sürünmək üçün gücün və bacarığın varsa...

Nə vaxtdan sürünmək insan işi olub, hünər olub ki, sürünməyi əsrlərdir bizə məsləhət görürlər. Sürünmək belə xoşunuza gəlirsə, özünüz dizləriniz yırtılana qədər, dəriniz sıyrılana qədər sürünə bilərsiniz. Axı indi sürünmək də “könüllüdür”. Bəlkə biri sürünmək istəmir, sürünənlərin halına ağlamaq istəyir, əl uzadıb ayağa qaldırmaq istəyir ki, insan kimi yerisinlər, qaçsınlar. Belə sürünməklə hələ çox dalda qalacağıq...

Axı niyə qoymursunuz kimsə el üçün ağlasın, niyə iki gözündən olacaqsan deyə qorxudursunuz? Kim ən əziz orqanından – gözlərindən keçər axı?.. Bu qorxu ilə yüklənmiş hansı uşaq böyüyüb el üçün ağlayar?! Bu uşaq böyüyəndə göz yaşını gizlətmək üçün və yaşamaq uğrunda mübarizə instikti ilə eli ağladacaq, ağlar qoyacaq hamını. Çünki iki gözündən olmaq istəməyəcək, yemək, içmək, gözəl yaşamaq, varlanmaq istəyəcək. Axı ya gərək palaza bürünüb elnən sürünə, ya da el üçün ağlayıb gözsüz qala... İkisinin də adekvat seçim olmadığını bildiyi üçün öz bildiyi kimi hərəkət etməyə məcbur olacaq. Üstəgəl sözə də şübhə ilə yanaşacaq, inamını itirəcək.

Çünki bu təkcə palaza bürünüb elnən sürünməklə və el üçün ağlayaraq iki gözündən olmaqla bitmir. Bunun hələ beynini dəng eliyən bu günün işini sabaha qoyma və tələsən təndirə düşər; danışmaq qızıldırsa, susmaq gümüşdür və susmaq razılıq əlamətidir; əyri otur düz danış və düz düzdə qalar; öyrənmənin yaşı yoxdur və qırxında öyrənən, gorunda çalar; artıq tamah baş yarar və çox pul cib deşməz; qız yükü, duz yükü və qız qalar, qızıla dönər; ad adamı bəzəməz, adam adı bəzəyər və adı gözəl olanın özü də gözəl olar və sair kimi ziddiyyətli, baş sındıran, adamı dəli edən, şüuraltında ilişib qalmış atalarından ötürülən onlarla kodlar vardır.

İndi siz deyin, axı hansına inanasan, bu ümummilli ziddiyətlərin hansını şüar edib yaşayasan, hansına həyatını həsr edəsən, hansının arxasıyca gedəsən, hansından ilham alasan, hansını bədəninə tatuaj etdirəsən?..

Bəs siz hansılardansınız: sürünənlərdən, yoxsa ağlayanlardan?..

## SAAKAŞVİLİ GÜRCÜSTAN MÜXALİFƏTİNİ PREZİDENTLİYƏ VAHİD NAMİZƏD İRƏLİ SÜRMƏYƏ ÇAĞIRIB



Gürcüstanın həbsdə olan sabiq prezidenti Mixeil Saakaşvili müxalifətə bu il keçiriləcək prezident seçkilərində vahid namizəd irəli sürmələrini təklif edib.

O, müxalifətdən kimin prezidentliyə namizəd ola biləcəyini təxmin etdiyini deyib: “Amma mənə başqalarının fikirləri də maraqlıdır”, – Saakaşvili bildirib.

M.Saakaşvili Gürcüstanın hazırkı prezidenti Salome Zurabişvilinin parlamentdə illik hesabatını müsbət qiymətləndirib. Qeyd edib ki, hesabatda ölkədəki bütün qərbyönlü qüvvələrin birləşməsinə çağırış xüsusilə önəmli məqamdır: “Oliqarx Bidzina İvanişvilinin hakimiyyəti tükənib və qarşıdan gələn seçkilərdə Gürcüstanı onun caynağından xilas etmək lazımdır”.

M.Saakaşvili İrakli Qaribaşvilinin əvəzinə hakim “Gürcü Arzusu – Demokratik Gürcüstan” partiyasının sədri İrakli Kobaxidzenin Baş nazir təyin olunmasını gürcü xalqını ələ salmaq kimi qiymətləndirib.

Qeyd edək ki, M.Saakaşvili 2003-cü ildə Gürcüstan Prezidenti Eduard Şevardnadzenin devirilməsi ilə nəticələnən “Qızılgül inqilabı”nın əsas ideoloqu və təşkilatçısı olub. 2004-cü ilin yanvarın 15-də keçirilən seçkilər nəticəsində Gürcüstan Prezidenti seçilib. 2013-cü ildə ikinci prezidentlik müddəti bitib və ölkəni tərk edib. O, daha sonra Ukraynaya gedib, bu ölkənin vətəndaşlığını qəbul edib və Odessa vilayətinin qubernatoru vəzifəsində çalışıb. 2021-ci ilin oktyabrın 1-də Gürcüstana qayıdıb və həbs olunub.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 15 FAİZ AZALIB




Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, cari ilin yanvar ayında Gürcüstanın xarici ticarət dövriyyəsi 15 faiz azalıb.

Bildirilir ki, yanvar ayında Gürcüstanın xarici ticarət dövriyyəsi 1,3 milyard ABŞ dolları təşkil edib, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 15 faiz azdır.

Hesabat dövründə xarici ticarətdə idxalın həcmi 10,2 faiz azalaraq 1 milyard dollar olub. İxracın həcmi isə 26,3 faiz azalaraq 338 milyard dollar təşkil edib.

Gürcüstanın xarici ticarətində 663,4 milyon dollar həcmində mənfi saldo yaranıb, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 1,1 faiz çoxdur.

Qeyd edək ki, 2023-cü ildə Gürcüstanın xarici ticarət dövriyyəsi 21,5 milyard dollar olub. 2022-ci illə müqayisədə bu, 12,5 faiz çoxdur.

## GÜRCÜSTANIN TURİZM GƏLİRLƏRİ 4 MİLYARD DOLLARDAN ÇOX OLUB



2023-cü ildə Gürcüstanın beynəlxalq turizmdən gəlirləri pandemiyadan əvvəlki 2019-cu illə müqayisədə 26,2 % (856,7 milyon dollar) artaraq 4,1 milyard dollara çatıb. Bu barədə Gürcüstanın Milli Turizm Administrasiyasının məlumatında bildirilib.

Qeyd olunub ki, təkcə ötən ilin dördüncü rübündə Gürcüstan turizmdən 873,67 milyon dollar gəlir əldə edib. Ötən ilin oktyabr-dekabr ayları ərzində Gürcüstanı 1,5 milyon nəfər ziyarət edib. Bunun təxminən 1,01 milyonunu beynəlxalq turistlər təşkil edib.

# QARAYAZI GÖYƏRÇİNLƏRİ



Bilmirəm sovet gənclərində də yerliçilik hissi vardımı və ya hansı dərəcədə idi, amma keçid dövrünün gəncləri elə bil bir başqaydı. Ətrafımız doluydu qaçqın, köçkün, didərgin insanlarla. Kəndimiz deyəndə el-obasına həsrət qalan gənclərin gözlərindəki həsrətin və qibtənin nə olduğunu şahid olanlar bilərdi. O həsrətin, qibtənin təsiri altında bir elini itirmək qorxusu biz gürcüstanlı tələbələrdə bir başqa idi. Bir təşkilat olmasaq da, demək olar ki, əksər tələbələr bir arada idi, hətta bizə kütlə tərəfindən qoyulan "QrAz" kəlməsini də yekdilliklə qəbul etmişdik. Axı sonunda "Az" vardı. Bax beləcə dəxli yox idi haralısan, Borçalının hansı nöqtəsindənsən. Əsas o idi ki, özümüzdənsən, vəssalam!

Mən heç kimin hansı rayondan olduğuyla da maraqlanmırdım, əsas o idi ki, "QrAz" idi. 1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərində Bakı universitetlərində gürcüstanlı tələbələrin sayı çox azalmışdı. Bakıda tədris proqramı fərqi, test üsulu qəbulu və ödənişli təhsil, demək olar ki, bir eniş gətirmişdi. Yalnız imkanlı ailələrin uşaqları 9-cu sinifdən sonra gəlib Bakıda repetitorla hazırlaşırdılar və qəbul ola bilirdilər. Həmin azlıq siyahısında Marneuli öndə idi. Dmanisidən, Bolnisidən çox savadlı uşaqlar olardı, hansı ki, xüsusi müəllim olmadan öz gücləri ilə hazırlaşırdılar. Etiraf edim ki, mən heç Qardabanidən tələbəyə rast gəlmirdim, yəni mən tanımırdım. Elsevər, yurdsevər biri kimi bu məni çox narahat edirdi. Həmişə gürcüstanlı tələbələr bir-birimizlə görüşəndə ilk sualım o olurdu ki, Qarayazıdan – Qardabandan tələbə tanımırsınızmı?

Həmişə düşünürdüm ki, yəqin Qardabanidə təhsilli insanlar olaraq yalnız sovet dövründə təhsil alan ziyalılar qalıb. Axı mən heç Qardabanidən tələbələr eşitməmişdim. Borçalı dediyimiz məmləkətimizin bir parçası Qarayazımız üçün bunu bir faciə hesab edirdim. Necə də olsa sovet təhsilinin nəticəsi "tükənən sərvətimiz" idi axı. Etiraf edək ki, doğrudan da bu qorxu var idi. Nə yaxşı ki, "1+4" layihəsi təşkil olundu...

İllər sonra mən Borçalıya döndüm. Bu 3 ildə apardığım araşdırmalar mənim Qardabani haqqında olan narahatlığıma elə xətt çəkdi ki, mən artıq Qardabani deyəndə teatr, rəssam, şair, inteqrasiya mərkəzi, gənclər mərkəzi, xüsusi milli uşaq bağçası, qəzet, jurnal ocağı haqda düşünürəm.

Qızların məktəb oxuması qadağan olan zamanda kişi qeyrəti ilə deputat olan, bir neçə dil bilən, leksikonumuzdakı "Kişi Pəri" ifadəsinin prototipi olan Pəri Sofiyevanın Qarayazı mahalının gənclərinin uğurları məni o qədər sevindirir ki, hər birinə öz balam kimi kövrəlir və qürurlanıram.

Son ayların uğurlu gəncləri Qardabani səmasının ulduzlarıdırlar – Pəri Sofiyeva günəşinin səmasından boylanan ulduzlar. Hansı ki, hələ bilmədiyimiz, tanımadığımız nə qədər gənclər var o səmada...

Ümumiyyətlə, son zamanlar Gürcüstanda azərbaycandilli məktəblərin məzunu olmuş gənclərimizin xoş sədaları hamımızı elə qürurlandırır ki, fəxr etməmək mümkünmü?!

Qardabani gənclərinin xoş sədalarından xeyli yazmaq olar, amma son aylarda ardıcıl olaraq üç gəncin uğuru bizi daha kövrək notlara kökləd. Ağtəhləli gəncimiz Albina Məmmədova Kembric Universitetində ödənişsiz magistr təhsili aldı və məzun olduğu universitetin Coğrafiya Departamentində işə başladı. Bir neçə gün sonra Qaracalar kəndindən 19 yaşlı Yusif Mehdiyev Gürcüstan futbol yığmasına dəvət edildi. Bəli, bu da artıq idman sahəsində Qardabanidən növbəti uğurdur. Ən qeyri-adi, fərqli, gözlənilməz xəbər isə Əsmər Nuriyevadan gəldi. Borçalıdan təyyarəçi qadın olaraq ilkə imza atdı.

Azərbaycanda, Cənubi Qafqazda, Cənubi Avropa və Ön Asiyada ilk qadın təyyarəçi Leyla Məmmədbəyova (1909-1989) olmuşdur. Jukov adına Hərbi Hava Akademiysının məzunu Züleyxa Seyidməmmədova İkinci Dünya müharibəsində qəhrəmanlıq göstərmiş, böyük təltiflər sahibi olmuşdur. O, hətta 1952-1975-ci illərdə Azərbaycan SSR-nin ictimai təminat naziri olmuşdu.

Gürcüstanda ilk təyyarəçi qadın isə Zuqdididən 1915-ci il təvəllüdlü Rusudan Jordaniya olmuşdur. O, 1935-ci ildən işinə başlamış və ömrünün sonuna qədər cəmi 550 saat havada olmuşdur. Təqaüdə çıxdıqdan sonra hərbi pilot məktəbində müəllim işləmişdir.

Qaracalar məktəbinin məzunu Əsmər ABŞ-ın Florida ştatında "Epik Flight" Akademiyasının tələbəsidir. O, birinci kapitan pilot olaraq məşhur "United Airlines" şirkətində işə başlayıb. Əsmər də Borçalının ilk pilotu oldu. Az yaşda böyük uğurdur. Əsmərimizin belə xoş sədasını eşidək!

Hə, beləcə mənim Qardabani haqqında necə böyük səhvimin şahidi elə özüm oldum. Mən maraqlı mövzular axtardıqca əksəriyyəti gözəl yurdumuzun bir parçası olan Qardabani rayonuna – Qarayazıya ünvanlanır.

Qarayazı gənclərinə uğur və müvəffəqiyyət arzulayıram! Yuxarıda adlarını çəkdiyim Azərbaycan və Gürcüstan təyyarəçi qadınların şərəfli həyatı ibrət olsun Əsmər qızıma. Tarix yazdığı kimi, tarix yaşatsın! Siz zirvələr fəth edin, mən daim sizinləyəm!

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# YALANÇI CƏNNƏT



Elə başdanca deyim: avropalılar cənnəti burada, yaşadıqları yerlərdə – ayaqlarının altında, başlarının üstündə, bir sözlə ətraflarında yaradıblar, bizimki isə "nisyə" söhbətdir. Avropalının cənnəti gerçəkdir, nəğddir. Onun cənnətini biz yalançı hesab edə bilərik, keçici adlandıra bilərik. Amma etiraf edək ki, avropalının cənnəti duyğu üzvləri vasitəsilə bəlirlənəndir.

Onun cənnəti gözlə görüləndir: al-əlvan çiçəkdir, steril təmizlikdir, komfortdur, lüks arabadır, kosmik gəmidir. "Madonna"dır, "Mona Liza"dır, canım sənə desin, sarısı gözoxşayan "Günəbaxanlar"dır.

Avropa çimməyi bizdən öyrənib, hamamı bizdən mənimsəyib kimi nağıllarla özümüzü aldatmayaq. O üzdən ki, ortada Qədim Romadakı hamamlar – termlər kimi təkzibolunmaz fakt var. Bir də ki, babalarımızla babalarını deməkdənsə, özümüzlə özlərini deməmiz daha doğru deyilmi?

Onun cənnəti gözəl qoxudur. "İci Paris"dir, "Chanel"dir. Burun bu ətri aldımı, unutmaz. Bunu da Avropanın keçmişindəki natəmizliyə bağlamamız baş qatmaqdan savayı heç nəyə yaramır.

Onun cənnəti ləziz daddır. Şokoladdır, keyfiyyətli təamdır, hər şeyin yaxşısıdır. Daddınmı, dilinə dəydimi dilin-damağın cana gələr.

Onun cənnəti iliyə işləyən səsdir. Bethovendir, Baxdır, Ştrausdur, Şopendir. Polifoniyadır. Daha çıqqıdı-çıqqıdı deyil, heç meyxana da deyil. Bu səsi beynə ötürmək hər qulağın işi deyil. Bu səsin sehrinə düşdünmü, özündən keçərsən.

Onun cənnəti əllə tutulandır, bütün bədənlə dərk ediləndir. Əlindəki telefondur, cibindəki puldur, tumarladığı saçdır.

Avropalının cənnətinin kökü dünəndədir, gövdəsi bu gündə. Bizim cənnətimiz nağıldır, mistikadır, xəyal məhsuludur. Baş aldatmadır, baş qatmadır bizimki. "Min bir gecə" nağılıdır.

Bizim cənnətimiz gələcəkdədir. Biz öləndən sonra orada yaşayacağıq. O da, ya bəxt, kimin qismətinə düşə, ya düşməyə. Avopalı cənnətini bu gün yaşayır. Bizim cənnətimiz sonra gələcək. O cənnətin gələcəyi gələcək naməlumluq, qeyri-müəyyənlikdir. Məchuldur. Bizə vəd olunan cənnət gözümüzlə görə bilməyəcəyimiz bir yerdədir. Onun gözəlliklərini yalnız təsəvvür edə bilərik. Onu da edə bilsək.

Biz cənnətimizin qoxusunu ala bilmirik. Nədən ki, onun ətri qoxu orqanlarımızdan uzaqdadır. Heç o qoxunun necəliyi barədə də bilgimiz yoxdur. Duymadığımız ətir haqqında nə deyə bilərik ki? Bizim bilgimiz ağız söhbətindən o yana keçmir. Heç bilmirik haradadır. Heç bilmirik kainatın harasındadır.

Onların yaratdıqları cənnət praktikdir, lazım olanda istifadə olunandır. Onların cənnətində içməli su orqanizmə yararlıdır, biz yararlı suyu gələcək cənnətimizdə içəcəyik. Bizə söz veriblər axı.

Onların cənnətində huri-qılmanlar hər yerdədir, əlçatardadır. Öz yaratdıqları cənnətlərində hurilər qılmanlarla əl-ələ, qol-qola gəzməklərində, keflərində-damaqlarındadırlar. Nəğdi qoyub "nisyə" dalınca düşəsi ha deyillər. Bizim üçün huri-qılmanlar gələcəkdə, xəyali cənnətdədir. Hər işdə olduğu kimi, burada da avropalınınkı nəğddir, cibindədir, ovcunun içindədir, bizimki verəsiyədir. Kor Alı kömbə gözləyən kimi o günü gözləməkdəyik.

Avropa dinin təklif etdiyi cənnəti satın alıb, bitirib, sonuna çıxıb. İndulgensiyanı, cənnətə düşməyin qarantı olan bu qəbzləri kilsə satıb, qurtarıb. Avropalı hələ orta yüzilliklərin sonunda Tanrının mistik cənnətində boş yerin qalmadığını anlayaraq, öz əliylə, öz zəhmətiylə alternativ cənnətini yaradıb. Onun artıq Tanrının cənnətinə ehtiyacı da yoxdur.

Avropalı özünün yaratdığı cənnətin hər qarışını – torpağını-daşını, havasını, suyunu qorumağa məhkumluğunu da anlamaqdadır. Kiminsə gəlib onun cənnətinin keşiyində duracağını da düşünmür.

Biz cənnətimizin harada olduğunu bilmədiyimizdən onu Allah ümidinə buraxmışıq.

Onlar cənnətlərini tapıblar, biz hələ də axtarışdayıq. Bu gedişlə tapacağımıza güman varmı-yoxmu? Cavabsız suala bənzəyir.

**Afiq MUXTAROĞLU**

# TAMAR TSANAVA: "REGİONLARDA YAŞAYAN MÜƏLLİMLƏR TEZ-TEZ MƏNƏ YAZIRLAR Kİ, DİREKTORLA MÜNASİBƏTLƏRİNİ KORLAMAQ İSTƏMİRLƏR VƏ GÖRƏSƏN NECƏ HƏRƏKƏT ETMƏLİDİRLƏR – ANALIQ PULUNU TƏLƏB ETSİNLƏR, YA YOX?"

2023-cü ildən məktəblər müəllimlərin analıq məzuniyyətini ödəmək məsuliyyəti daşıyırlar. Müəllimin analıq məzuniyyətinin 6 aylıq əməkhaqqı ilə maliyyələşdirilməsi qərarı 2022-ci ildə parlamentin səhiyyə və təhsil komitələri ilə məsləhətləşmələr nəticəsində hökumət tərəfindən qəbul edilib. Parlamentin sədri Şalva Papuaşvili məktəb müəllimi və iki uşaq anası Tamar Tsanavanın parlamentə təqdim etdiyi qanunvericilik təklifindən sonra, hələ 2022-ci ilin yanvarında analıq məzuniyyətinin ödənilməsi məsələsinə baxılmasını müvafiq komitəyə tapşırıb.

Bu gün 2023-cü ildə Milli Müəllim Mükafatının ən yaxşı onluğuna düşmüş və öz peşəsində vətəndaş fəallığına görə xüsusi mükafata layiq görülmüş Tamar Tsanava analıq məzuniyyətinin ödənilməsi məsələsində həmkarlarının üzləşdiyi maneələri fəal şəkildə öyrənməyə davam edir və öz imkanları daxilində onlara müvafiq reaksiya göstərir. Tamar Tsanava müsahibəsində məktəblərin bir qismində bu baxımdan problemlərin olduğunu və bəzi hallarda mühasiblərin müəllimlərə analıq məzuniyyəti haqqını vermədiklərini bildirir.

**– Tamar, müəllimlərin analıq məzuniyyətinin maliyyələşdirilməsi ilə bağlı fəal təbliğatınız nə vaxtdan həyata keçirilir və nümunə olaraq bir müəllimin timsalında əməkhaqqı sistemi necədir?**

– Dəyişiklik 2023-cü ilin 1 yanvarından qüvvəyə mindiyinə görə artıq demək olar, 1 il olur ki, Gürcüstanda müəllimlər də ödənişli analıq məzuniyyətindən faydalanırlar.

Mövcud qanuna görə, 183 gün (doğuş üçün 126 gün, uşağa qulluq üçün 57 gün – bunu ata da öz üzərinə götürə bilər), əkiz uşaq olduqda isə 143+57 gün ödənişlidir. Qeysəriyyə əməliyyatı zamanı bu, 200 gündür. Müəllim 27-ci həftədən analıq məzuniyyəti götürə bilər. Onun məzuniyyətə gedə biləcəyi son gün doğuş günüdür.

Lazımi tədbirlərə gəldikdə, analıq məzuniyyəti bülleteni ödənişli günlərin sayının yazıldığı xəstəxanada doldurulmalıdır. Müəllim iki məktəbdə işləyirsə, xəstəxana iki forma verməlidir. Bundan sonra müəllim analıq məzuniyyəti bülletenini məktəbin müsahibinə aparır. Həmçinin bank rekvizitləri, uşağın doğum haqqında şəhadətnaməsinin surəti və ananın şəxsiyyət vəsiqəsinin surəti lazımdır. Bundan sonra məktəb mühasibi sənədləri sosial xidmət orqanına aparır və sənədlər təqdim edildikdən sonra 1-2 ay ərzində bank hesabına 2000 lari köçürülməlidir. Bu 6 aylıq əməkhaqqından tutulacaq (əmək haqqına həm sertifikat əlavəsi, həm də müəllimin aldığı sinif rəhbərliyi və digər əlavələr daxildir) və artıq nə qalırsa onu məktəb köçürür (hər ay və ya bütövlükdə). Məktəb büdcəsində pul yoxdursa, məktəb Təhsil Nazirliyinə müraciət edir və nazirlik pulu məktəbin büdcəsinə köçürür.

Müəyyən edilmiş müddətlərə baxmayaraq, bəzən sosial xidmətdən, məktəbdən ödəniş gecikir. Belə hallar daha çox region məktəblərində olur və bunun qarşısını almaq üçün bütün məktəblərə dəqiq göstərişlər vermək lazımdır ki, müəllimlər həm sosial xidmət qurumundan, həm də məktəbdən öz haqqını vaxtında alsınlar.

**– 2023-cü ildə müəllimlər ödənişli analıq məzuniyyətindən nə dərəcədə fəal istifadə ediblər və onlarla əlaqəniz necədir?**

– Mənim yaratdığım, bir-birimizə fəal köməklik göstərdiyimiz, təcrübə mübadiləsi apardığımız feysbuk sosial şəbəkəsində "Müəllimlərə analıq məzuniyyətinin ödənilməsi" adlı qrupun nümunəsindən istifadə edərək deyə bilərəm ki, bu il 100-ə yaxın müəllim analıq məzuniyyətinə çıxıb. Bu fakt məni çox sevindirir, çünki bu qrupa daxil olan 1700 müəllimdən 100-nün müsbət nəticəsi artıq qanunun qəbulunun həqiqətən də təcili və zəruri olduğunu göstərir. Elə gün olmur ki, bu mövzuda müəllimlərdən rəy almayım. Bəziləri mənə sadəcə təşəkkür edir, bəziləri isə təfərrüatlarla maraqlanır və mən öz bacarığım əsasında hər kəsə məsləhət verməyə çalışıram. Deyə bilmərəm ki, bütün təfərrüatları hərtərəfli bilirəm, amma müəllimlərin analıq məzuniyyəti məsələsi ilə bağlı artıq müəyyən təcrübə toplamışam.

**– Bu rəyləri nəzərə alaraq, icra prosesi ilə bağlı hansı məlumatlara maliksiniz, məktəblər bu xəbəri asanlıqla qəbul edib?**

– Bu, çox maraqlı prosesdir və şəxsən mənə gələn bütün işləri izləyirəm. Qanunda müəllimin neçə gün analıq pulu almaq hüququ olduğu açıq-aydın göstərilsə də, dəyişiklik bütün məktəblərə göndərilsə də, mühasiblərin müəllimlərə əməkhaqqı verməkdən imtina etməsi halları hələ də var. Səbəb kimi məktəbin kifayət qədər büdcəsinin olmaması göstərilir. Amma qanunda açıq-aydın yazılıb ki, belə olan halda məktəb Təhsil və Elm Nazirliyindən məbləği tələb etməlidir, onlar məzuniyyət pulunu köçürəcəklər.

Məndə belə bir təəssürat yaranır ki, bəzi məktəb direktorları və mühasiblər məktəb büdcəsini elə qəbul edirlər ki, sanki analıq məzuniyyətini öz ciblərindən ödəyirlər və mən hamını qanuna yenidən baxmağa çağırıram.

Məsələn, regionlarda yaşayan müəllimlər tez-tez mənə yazırlar ki, direktorla münasibətlərini korlamaq istəmirlər və görəsən necə hərəkət etməlidirlər – analıq pulunu tələb etsinlə, ya yox? Mən isə suala sualla cavab verirəm: Öz övladınızın firavanlığı daha önəmlidir, yoxsa direktorun sizə münasibəti?..

**– Və bundan sonra hansı nəticə əldə olunur?**

– Çox müəllimlər mənimlə söhbətdən sonra özlərində güc toplayıblar və yazıblar ki, cəsarət göstərib haqlarını tələb ediblər. Direktor da qanunu daha diqqətlə oxuyub və əmin olub ki, müəllim öz haqqını boşuna tələb etmirmiş. Əgər fərqli vəziyyətdirsə və mən aydınlaşdıra bilmirəmsə, bu halda Təhsil Nazirliyi, Ümumi Təhsilin İdarə Edilməsi və İnkişafı Departamentinin rəhbərləri ilə ünsiyyət qururam, məlumat verirəm, nazirliyin hüquqşünasları məktəblə əlaqə saxlayırlar.

Baxmayaraq ki, məktəblərə sentyabrda sənəd də göndərilib, orada analıq məzuniyyəti ilə bağlı çox suala cavablar qeyd olunub, görünür məktəblərin bir qismində hələ də problemlər var. Düşünürəm, bütün dəyişikliklər kimi buna da bir az vaxt lazımdır ki, hamı başa düşsün və ümid edirəm, gələn il məktəbin müəllimə analıq haqqını verməkdən imtina etməsi, müəllimin isə direktorun xətrinə dəyməmək üçün səsini çıxarmayacağı halları olmayacaq. İnanın, övladınızın rifahı susmaqdan da, səbir etməkdən də önəmlidir.

**– Necə düşünürsünüz, "Bu ölkə sənindir" mükafatına layiq görülmüş müəllimin vətəndaş fəallığı nümunəsi olması nə dərəcədə və kimlər üçün mühümdür?**

– Ola bilər bütün müəllimlər məktəbdən kənar fəal




vətəndaş olmasın, amma düşünürəm ki, sinifdə bütün müəllimlər fəndən əlavə düzgün vətəndaş dəyərlərini şagirdlərə ötürməyə çalışmalıdırlar. Yəqin tez-tez unuduruq ki, bu uşaqlar bizim gələcək nəslimizdir və əgər onları ədalətli, məsuliyyətli vətəndaş olaraq yetişdirməsək bizim yaşlılığımız da stabil, təminatlı olmayacaq. Çox müəllimlər bunu başa düşmür və dövlətdən verilən "güc-dən" əksər hallarda ölkənin firavanlığı üçün istifadə edə bilmirlər. Bizim ölkənin isə yaxın iyirmi ildə Gürcüstanı daha yaxşı vəziyyətə gətirəcək azad düşüncəli gənclərə hava kimi ehtiyacı var. İlk növbədə şagirdlər, sonra digər vətəndaşlar üçün nümunə olmalıyıq. Onlar bizə baxanda, ola bilsin, problemlərin həlli barədə düşünməyə başlayacaqlar, ədalətsizliyə etiraz edəcəklər. Başqa cür, problemlər daha da artacaq.

"Bu ölkə sənindir" mükafatını 2023-cü ildə Milli Müəllim Mükafatının finalında aldım və çox sevindim. Məhz pedaqoqun analıq məzuniyyəti haqqının qanuniləşdirilməsində iştirakım, müəllimlərin başqa problemlərinin işıqlandırılması və fəallığım üçün mükafatlandırdılar. Bu sevinc yəqin ki, həyatımın sonuna qədər mənimlə qalacaq, çünki yalnız mən bilirəm bu bir il ərzində analıq məzuniyyəti üçün mübarizə aparanda nə dərəcədə narahat oldum. Bu mübarizədə qəlbimlə inanırdım ki, qanun dəyişəcək və bir saniyə də olsun düşünməmişəm ki, bunun qarşılığında nə zamansa mükafat alacam. Bir daha əmin oldum ki, əgər səmimi mübarizə aparırsansa, əgər ürəkdən dəyişiklik istəyirsənsə, onlar mütləq baş tutacaq və bunun hamısına görə sənə minnətdarlıq bildirəcək adamlar olacaq.

**– Analıq məzuniyyətinin maliyyələşdirilməsi mövzusu kimi, müəllimlərin və cəmiyyətin iştirakı ilə uğura nail olmaq istədiyiniz istiqamətlər hansılardır?**

– 2023-cü ildə müəllimlərə layiqli pensiyanın təyin edilməsi ilə bağlı petisiya hazırlamışdım. Düşünürəm ki, 40-50 il stajı olan müəllimlər polis və digər strukturların nümayəndələri kimi həqiqətən də fərqli pensiyaya layiqdirlər. Əgər müəllimlərin zəmanətli və ləyaqətli qocalığı olarsa, o zaman 70-80 yaşa qədər peşədə qalmayacaqlar və məktəbə qəbul olması ciddi problem olan gənclərə yol verəcəklər. Artıq bir çox müəllimlər bu məsələdən danışıblar və əminliklə deyə bilərəm ki, indiyədək heç bir siyasi partiya, təşkilat bu məsələni gündəmə gətirməyib. İlk dəfə nazirlikdən və səhiyyə komitəsindən rədd cavabı almağımıza baxmayaraq (təbii ki, bunun səbəbi maliyyə çatışmazlığıdır) mən təslim olmaq fikrində deyiləm və gələn ildən bu məsələnin təbliğatına başlayacağam. Bilirəm ki, bir çox müəllimlər mənə böyük ümid bəsləyir və onları məyus etməmək üçün əlimdən gələni edəcəyəm. Çalışıram və inanıram ki, ürəkdən istədiyimiz hər şey alınacaq!

*Mənbə: "edu.aris.ge"*

**Gürcü dilindən tərcümə etdi: Aynurə Əliyeva**



# AVTOBUSLA SƏYAHƏT MƏDƏNİYYƏTSİZLİYİ

Keçən dəfəki "Abituriyentlərə tövsiyə" adlı yazımda vaxtı ilə özümün əməl etdiyim və etmədiyim mövzulara yer vermişdim. Çevrilib bir anlıq arxaya baxanda fikir verdim ki, tələbəlikdən heç söz açmamışam. Fikirləşdim ki, bu haqda bəzi mövzulara da toxunmaq lazımdır.

Deməli, on ay müəllim yanına hazırlığa gedəndən, həyəcan və qorxu hissi keçirərək imtahan verəndən və səbirsizliklə nəticələrin çıxmağını gözlədikdən, müsbət nəticə əldən etdikdən sonra tələbə həyatı başlayır. Azər Musaoğlunun da dediyi kimi, tələbə gərək bir çox şeyi tələb edə. Həmçinin həyat da səndən nələrisə tələb edir. Sanki insana bir məsuliyyət hissi gəlir. Məktəbdə iki-üç çalışmanı yazmağa ərinən şagirdlərin universitetə qəbul olduqdan sonra necə oxumağa çalışdıqlarını da gördüm, qəbul olandan sonra iki-üç gün dərsə gedib, qalan vaxtlarını o kafe sənin, bu restorant mənim gəzəcəklərini düşünənlərin xəyallarının necə puç olduğunu da. Amma bizim mövzumuz bu deyil. Əlimizdən gəldiyi qədər problemlərə toxunmalıyıq. Bu problemlərdən biri kirayə ev problemidir ki, "Yeni Yol"un yazarlarından Aytən Fətullayeva "Tələbənin kirayə ev problemi" adlı yazısında bu mövzuya toxunub. Əgər bu problemi həll etmək mümkün deyilsə, deməli, tək variant universitetə imkan daxilində, məsafədən asılı olaraq, avtobusla gedib-gəlməkdir. Bunun özü isə başqa bir dərddir.

Dərsə gecikməmək üçün avtobusa çatmaq, yolda tıxac, dərsdən çıxandan sonra son avtobusa çatmaq üçün tələsmək, yol yorğunluğu və sairə. Əlbəttə, bunlar tək tələbələrə aid problemlər deyil, əksər insanların yaşadığı problemlərdir. Mənə görə bunların şahı avtobusda oturmağa yer tapmamaqdır. Çünki avtobusda ayaq üstündə bir şəhərdən digərinə gedib-gələndə insan avtobusa çatdığına belə peşman olur. Ona görə ki, bizim nə sürücülərimizdə, nə də sərnişinlərimizdə avtobusla gedib-gəlmək mədəniyyəti yoxdur. Bəzi sürücülərin gözünü pul örtüb. Bəziləri avtobusa o qədər sərnişin doldururlar ki, içəridə oksigen azlığı yaranır. Elə bil daşıdıqları insan deyil, heyvandır, bazara satmağa aparırlar. Heç maşına heyvanı bu qədər basabas doldurmurlar ki, yeri sıx olar, heyvanlar tələf olar. 20 nəfərlik maşına 30 nəfər doldururlar. Hələ bəzi sürücülər maşınında əlavə sərnişinin oturması üçün kətil belə daşıyırlar.

Sürücülər bu cür məsuliyyətsizliyi gündüzlər Qardabani-Tbilisi istiqamətində getdikdə etmirlər. Tbilisiyə gedən avtobusda maksimum Təzəkəndə qədər ayaq üstündə gedirlər. Sonra orada düşənlər olur və Tbilisiyə gedənlər oturacaqlarda rahat bir şəkildə yoluna davam edirlər. Mən şəxsən bu istiqamətdə getdikdə ayaq üstə çox durmamışam, nə də çox duranı görməmişəm. Bəlkə bunun səbəbi həmin saatlarda Tbilisiyə müqayisədə az adamın getməsi və ya gündüz saatları olduğundan sürücünün qaydaları pozduğunun tez anlaşılacağıdır. Bunu dəqiq deyə bilmərəm. Amma bu cür qayda pozuntusunun hər dəfə evə qayıdanda şahidi olmuşam.

Bu günlərdə yenə Tbilisidən qayıdırdım. Dərsdən həmişəki vaxtdan bir az tez çıxmışdıq. Ona görə də avtobusa bir az tez çatdım. Yaxınlaşanda avtobusun dolu olduğunu gördüm. Yenə də içəri baxdım ki, bəlkə boş yer ola. Əsas oturacaqlar dolu idi. Bircə qatlanan orta oturacaqlarda heç kim oturmamışdı. Nə yalan deyim, mən orada oturmağı sevmirəm. Bu avtobusa minmək istəmədim. O birisinə baxdım, amma onun sürücüsündən sözün əsl mənasında zəhləm getdiyi üçün minmədim. Həm kobud insandır, həm də maşını çox sürətli idarə edir. Ona görə keçdim bayaqkının ən axrıncı orta oturacağında əyləşdim. Bir azdan o biri oturacaqlar da doldu. Elə avtobus yenicə tərpənmişdi, bir qadın özünü qabağına atdı ki, saxla, mən də minmək istəyirəm. Sürücü yer yoxdur desə də, arvad vedrəmin üzərində oturacağam deyib qapını açdırdı. Minəndə bizim klassik göy satan nənələrdən olduğunu gördüm. Stilindən başa düşməmək olmazdı. Onsuz o saatlarda həmişə onlarla eyni avtobusda getdiyimdən bəzilərini simasından tanıyırdım. Bütün yolu göyərtidən və bazar qiymətlərindən danışırlar. Bir də, qeybəti heç əskik etmirlər. Nənəmiz keçib vedrəsinin üstündə oturdu...

Mən də bir anlıq bizim millətdə nə qədər çatışmayan cəhət olduğunu düşünməyə başlamışdım. Sürücü deyir yer yoxdur, bu qadın yenə zorla avtobusa minir. Bir yandan da bu nə yaxşı sürücüdür deyə düşündüm, artıq adam götürmür. Çünki onun maşınına birinci dəfədir minmişdim və tanımırdım. Amma, təəssüf ki, bu düşüncəm uzun çəkmədi. Rustaviyə çatan kimi avtobusu saxlatdılar və üç nəfər mindi. Bir az gedəndən sonra bir nəfər düşdü və iki nəfər mindi. Düşən adamın yerində göy satan nənə əyləşdi. Bir az gedəndən sonra bir daha avtobusu saxlatdılar. Sərnişinlər minmək istəyəndə avtobusun dolu olduğunu gördülər. Gürcü idilər və yer olmadığı halda sürücüdən avtobusu niyə saxladığını soruşdular. Sürücü ortada oturanlar ayağa qalxıb oturacaqları bağlayıb geri çəkilsələr yer olacaq deyə cavab verdi. Qabağımdakı orta sırada oturan üç nəfər ayağa qalxıb oturacaqları bağladı. Mən tərpənmədim, halım da yox idi. Gürcülər deyinə-deyinə avtobusa mindilər. Dedim daha bu son olar, bu qədər adam ayaq üstə getməz. Bir daha saxlatdılar avtobusu. Bu dəfəkilər azərbaycanlılar idilər. Yer olmasa da kirimişcə yenə minməyə çalışdılar. Gürcülər etiraz etdilər ki, yer yoxdur. Bizimkilər rus dilində: "Onda sən düş biz minək. Elə bil bunlar var deyə biz evimizə gedəsi deyilik. Səsimizi çıxarmadıqca başımıza minirlər", – deyə hay-küy saldılar. Gürcülər etiraz elədilər ki, siz qaydaları pozursunuz, bu qədər adamın minməsi qadağandır, sizi şikayət edəcəyik və sairə. Amma sürücü heç vecinə də almadı, "mən maşını saxlayıram, seçim sizindir, istər minin, istər minməyin" dedi. Gürcülər düşdülər, bizimkilər mindilər. Artıq mən də ayaq üstündə idim. Bir az gedəndən sonra nəfəs darlığı başladı və yalnız qabaq pəncərələr açılırdı. Bir təhər gəlib çatdıq Qardabaniyə. Amma gəlib çatana qədər nə çəkdik – onu Allah bilir.

Bu əhvalatdan o nəticə çıxır ki, bizim nə sürücülərimiz düz-əməllidir, nə də sərnişinlərimiz. Təbii ki, bunu hamıya şamil etmirəm. Məsələn, bir sürücü var, həm mədəni, həm maşını düzgün idarə edir, həm avtobusa o qədər adam mindirmir, həm də maşınını çox təmiz və səliqəli saxlayır. Daha bu danışdığım sürücü kimi yox. İndi ola bilsin deyəcəksiniz: bəs belə olanda niyə etiraz etməyirsiniz. Etmişik. Mən də etmişəm, başqası da. Hələ bir dəfə sürücü "şofer" mənəm, mən bilərəm, deyə cavab verib. Hətta sərnişinlərdən ona dəstək çıxaraq, onun işinə qarışmayın, özü bilər deyənlər də olub. Uzun sözün qısası, bizdə avtobus mədəniyyəti də yoxdur. Söhbət böyüyə, yaşlıya yer verməkdən getmir. İnsan kimi bir şəhərdən başqa şəhərə getməkdən gedir. Hava soyuq olsa, qar, yağış, boran olsa, yenə başa düşmək olar. Deyərsən, adamdır, çöldə, bayırda qalıb bu havada, daha avtobus da yoxdur. Amma daha belə də yox...



Ona görə də bir tələbə olaraq tələbə namizədlərə belə bir tövsiyə verim. Əgər ayaq üstə qalmaq istəmirsinizsə, ya ən arxada oturmalısınız, ya da ən öndə – sürücünün yanında. O da, bəxtiniz gətirib bu yerlər boş olarsa. Yoxsa bizim millətin bu istiqamətdə tərəqqi etməyinə və bu xüsusiyyətindən əl çəkməyinə hələ var deyə düşünürəm. Ümid edirəm çox uzun çəkməz. Camaatın kosmosa səyahət etdiyi dövrdə avtobusla iki şəhər arasında bu cür gedib-gəlmək biabırçılıqdır.

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# DÖVRÜ DƏYİŞƏN İNSAN



İnsanlar niyə belə dəyişib, insanlar niyə belə olublar deyə öz-özümə sual verirəm. Mərhəmətsiz, hörmətsiz, qədir bilməyən olublar. İndi biz elə bir dövrdə yaşayırıq ki, insanlar bir-birlərinə yaxşılıq belə etməyə qorxurlar. Elə bir zamana gəldik ki, artıq kimsə bizə yaxşılıq edəndə, doğrudanmı yaxşılıq edir, yoxsa özü üçün başqa səbəblərimi var deyə düşünürük...

Bu yaxınlarda olan bir hadisəni misal olaraq göstərim. Mən səhər işə gedərkən ana ilə uşaq arasında olan bir söhbətə şahid oldum. Hər səhər bir yaşlı kişi görürəm, kartonları, kağızları yığıb makulatura kimi satır. Metrodan çıxarkən ana ilə qızı gördüm, qız 5-6 yaşlarında olardı. Qız o yaşlı kişini gördükdə anasına sual verdi: “Ana, bu kişi niyə zibil yığır?” Anası ona belə cavab verdi: “Əgər oxumasan, sən də onun kimi olacaqsan”...

Ananın qızına verdiyi cavabı eşidəndə qəribə oldum. Tanımadığın, həyatında hansı hadisələrin baş verdiyini bilmədiyin bir insan haqqında belə asan mühakimə edib necə belə düşünə bilərsən? Bəlkə bu adamın iki ali təhsili var və ya bəlkə hansısa yüksək bir vəzifədə işləyir, yaxud bəlkə də o, sadəcə yaxşı bir iş üçün bunu edir, ya ətrafın təmizliyi üçün yerdən kağız, karton toplayır...

Biz insanların həyatında baş verən hadisələri bilmirik, buna görə də kiminsə barəsində belə asanlıqla danışmağa haqqımız yoxdur. Əgər sən ana olaraq bunu övladına öyrətməsən, heç kəs öryətməyəcək və o uşaq gələcəkdə bu işlə məşğul olan insanlara qəribə baxacaq, əməklə görülən heç bir işə dəyər verməyəcək, belə adamları dəyərsiz hesab edəcək.

Bir dəfə kafedə qızlarla oturmuşdum və küçədə hardasa 18-19 yaşlarında bir oğlanın pullu dayanacağa getdiyini, maşınına mindiyini və bir kişinin parkinq pulunu götürmək üçün ona yaxınlaşdığını gördüm. Oğlan maşının pəncərəsini açdı və pulu yerə atdı, kişi əyilib pulu yerdən götürdü. Oğlanın bu hörmətsizliyini görəndə düşündüm ki, görəsən dünyada nə qədər belə hörmətsiz insan var və bu kişi neçəsi ilə qarşılaşıb.

Kədərləndim, insanlar niyə belə dəyişiblər, dünya niyə belə dəyişib? İnsanlar qarşılarındakı hər hansı insanın gördüyü işə qarşı hörmətsizlik edirlər. Onların gördüyü işin qədrini bilmirlər, yaşlılara qarşı hörmət göstərmirlər. İnsanlar alın təri ilə çalışanların əməyini qiymətləndirməyi unudublar. Hər bir peşə, görülən hər hansı bir iş qiymətləndirilməlidir və düşünürəm ki, bunların hamısı çox vacibdir. Bəziləri elə düşünür ki, bərbərlik bir iş deyil, yaxud süpürgəçilik bir iş deyil... Bunun kimi bir çox əmək tələb edən iş haqqında belə düşünən insanlar var. Məsələn, bərbər olmasaydı biz saçımızı istədiyimiz tərzdə kəsdirə bilməzdik. Süpürgəçi olmasaydı hər gün girdiyimiz yerin, fərqi yoxdur, məktəb, ofis, kafe və bunun kimi bir çox yerin çirkli olduğunu görərdik. Yəni lazımsız və dəyərsiz bir iş yoxdur, hər bir iş vacib və dəyərlidir.

Həyat elə bir şeydir ki, bir gündə, bir saatda milyonçudan kasıb adama çevrilə bilərsən. Buna görə də başqalarının əməyinə hörmət etməli və dəyərləndirməliyik. İnsanlara qarşı yaxşı davranmalısan ki, onlar da sənə yaxşı davransınlar. Düşünməliyik ki, bu insanın həyatında nə cür hadisə baş verib ki, belə bir işdə işləyir, onun haqqında heç bir məlumatımız olmadan özümüzdən bir şeylər uydurub danışmaq düzgün deyil. Bu gün və ya sabah biz də o insanın yerində ola bilərik. Həyat qəribədir, nə olacağını bilmirsən, amma insan özü üçün yaşamağı bacarmalıdır, önəmli olan harada işlədiyin deyil, necə işlədiyindir. Həyat nə qədər çətin olsa da insan öz ayaqlarının üstündə durmalıdır.

**Elvina HACIYEVA**
*Nizami Gəncəvi adına Beynəlxalq Elmlər Akademiyasının hazırlıq kursunun tələbəsi*

# QININDAN ÇIXIB QININI BƏYƏNMƏMƏK



Qınından çıxıb qınını bəyənməmək – ilk dəfə bu ifadəni eşitdikdə nə mənaya gəldiyini başa düşmürdüm. Amma vaxt keçdikcə dərk etməyə başladım ki, bu cümləni daha çox kimə şamil edirlər: öz dilini bəyənməyən, haradan gəldiyini bilib keçmişini danan, əslini-nəslini danan, evindən çıxıb başqa yerdə bir az çox rahatlıq gördükdə öz evini bəyənməyən və s...

Mən belə düşünürdüm ki, insanların yaşı artdıqca hər şeyi daha yaxşı başa düşür, varın-yoxun nə olduğunu bilir və başqalarını kiçiltməzdən əvvəl dönüb öz keçmişinə baxır. Amma belə deyilmiş. Bəzi insanların yaşı artdıqca, nənəm demiş, özünü daha da dağın belinə dırmandırır. Özlərindən başqa dünyada başqalarının da yaşadığının fərqində olmurlar. Düzdür, insan özünü üstün tutmalıdır. Amma hər şey qədərində gözəl olduğu kimi, abartmaq da lazım deyil.

Biz universitetə başlayan gündən bir çox gənc, yaşlı, uşaq, bir sözlə, bir çox müxtəlif xasiyyətli insanlarla tanış oluruq. Hər birindən az da olsa bir şey öyrənirik. Çoxlarının hərəkətlərindən və davranış tərzlərindən dərs çıxarırıq. Məsələn, bir gün dərsdən evə qayıdarkən qrup şəklində gəzən universitet tələbələrinin söhbətinə istəmədən diqqət yetirdim. Çünki danışıqları adama o qədər təsir edirdi ki, bilmirsən universitetə başlayanda nə yeyib, nə içirlər ki, 360 dərəcə dəyişirlər. Belə ki, öz qrup yoldaşlarının ləhcəsini yamsılayaraq ona lağ edirdilər. Özləri guya ədəbi dildə danışırlar. Bunu hər kəsə şamil etmirəm, amma dünənə kimi ləhcəylə danışıb, universitetə başlayanda başqalarının ləhcəsinə, şivəsinə lağ edənlər çoxdur. Özləri öz ləhcələrini, haradan gəldiklərini danırlar. Amma başqaları qarşısında çox asanlıqla lovğalıq edə bilirlər, başqalarına lağ edib gülürlər. Özlərinin gülünc vəziyyətdə olduqlarından xəbərləri yoxdur. Əslində bu vəziyyətə gülmək lazım deyil.

Bir də öz dilindən utananlar var. Bir azərbaycanlı yaxınlaşıb söz soruşanda özlərini xarici kimi aparırlar, onunla başqa dildə danışırlar. Tanıyıram axı. Tanımadığım biri olsa yenə deyərdim ki, yəqin çoxdandır Tbilisidə və yaxud xaricdə yaşayır, bütün günü başqa millətlərin içində olub, ona görə də öz dilində fikrini çatdıra bilmir.

Buna baxmayaraq illərlə xaricdə yaşayıb öz dilini unutmayanlar da var. Bir-iki aya öz dilini necə yanılmaq olar axı? Bir insan azərbaycanlıdırsa onunla Azərbaycan dilində danışan biriylə niyə ingilis dilində danışasan ki? Harada görülüb ki, eyni millətdən olan insanlar bir-biri ilə xarici dildə danışsın. Nə dərəcədə normaldır? Əgər bir insan öz əslini-nəslini danırsa, haradan gəldiyini unudursa və öz dilindən utanırsa, o insandan nə tərbiyə, nə gələcək ummaq olar. Başqalarının dilinə gülmək əvəzinə, insan ilk öncə öz dilini sevməli və sevdirməlidir.

**Validə FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# GÜLÜŞÜN ESTETİKASI

**Elizbar CAVELİDZE**



*(əvvəli ötən sayda)*

Gülüşün məğzi və onun təkamül inkişafı barədə çoxlu tədqiqat mövcuddur. Filosoflar (Platon, Aristotel, Kant, Hegel...), tədqiqatçılar və yaradıcılar: Belə ki, Hammer, Gertsen, L.Timofeyev, A.Qurev, N.Qrişov, D.Pisaryev, A.Dovrolyubov, N.Şedrin, Bertels, A.Krımski, A.Qarbuzova, Hilmi Yücebaşı, Rona əl-Fasur, Q.Kiknadze, A.Kuteliya, A.Tsanava və sair...

Bütün yuxarıda xatırlanan müəlliflərin diqqətəlayiq fikirləri söylənilmişdir. Lakin indi bu əsərlərin qısa şərhi də belə mənim tədqiqatımın axarını başqa məcraya çevirərdi. Doğrudur, onu daha təsirli edərdi, lakin tədqiqatın predmeti konkretliliyini itirərdi ki, "mən"in o yanında obyektiv olaraq mövcud olan gerçəkliyi nəzərdə tutduğundan elə başdan bioloji olanı məqsədyönlülükdən ayırır. Dəfələrlə qeyd etdiyimə görə, ümumiyyətlə, estetik arenanı və onun dərki labüd şəkildə dialoq münasibətini tələb edir. Adi olaraq, əşya, hadisə dərk olunan zaman gözəlliyin, qəşəngliyin obyektinə çevrilir. Bir sözlə, yazda çiçəklənən badam ağacı obyektiv olaraq mövcuddur, lakin o gözəl və qəşəngdir ki, bu da subyektiv dərkdən sonra təsdiqlənir. Gülüş də estetik fenomen anlayışına və fikrinə yalnız o dialoq kontekstinə çevriləndə malik olur, ümumiyyətlə, onun strukturu "mən" və "o"nun və yaxud da əksinə, "o" və "mən"in qarşılıqlı münasibətlərində qurulub. Bu cür kontekstdə gülüş məqsədyönlü, daha doğrusu, teleoloji xarakterə malik olur və gülüşün təbiətinin təkcə mahiyyətinə deyil, eləcə də onun nəticəsinə mühüm əhəmiyyət verir. Ümumiyyətlə, bu cür səviyyədə səbəblər və səbəblər üzündən təbii olaraq satiraya çevrilməsi mümkün olan yumor irəli çəkilir. Hər iki halda – istər yumor olsun, istər satira – qılınc funksiyasını yerinə yetirirlər. Hərçənd ki, gülüşün daha kəskinliyi ilə və aqressivliyi ilə fərqləndiyi satiraya nisbətən yumor başqa gücə və çalara malikdir, bu, nəzərə çarpır, təbii keyfiyyətlilik də dəyişir.

Zənnimcə, Aristotel yumora uyğun olan "Poetika"sında gülüşün mahiyyətini çox lakonik şəkildə təsvir etmişdir: "Gülüş hər hansı bir səhv və çaşqınlıqdır, lakin ağrısız və zərərsizdir... (gülüş) yüngüllükdür (ədəbsizlik və həyasızlıq) ki, ağrı vermir" (Аристотель, "Поэтика" kitabında: Аристотель и античная литература, Изд. "Наука", M., 1978, стр. 119. Həmçinin: Аристотель об искусстве поэзии, M., 1957, стр. 53). Məsələn, maska ədəbsizdir və təhrif olunur, lakin ağrısızdır. Bir sözlə, bu cür gülüş "zərərsiz şəri" dəf etmək məqsədi daşıyır. Bu zərərsiz şər, istər şəxsi, istərsə də həyati olsun, nə fərdə, nə də cəmiyyətə ziyan vurmayan istənilən pislik sayıla bilər. Burada onu da vurğulamaq lazımdır ki, bu nöqsan və cəhalət əsrlərə, dövrlərə, zamana uyğun olaraq və ictimai fikrə görə, elə götürək, etika və əxlaqa uyğun olaraq dəyişir, üstəlik də o, hətta fərdi, subyektiv xarakter də daşıyır.

Belə bir şəraitdə gülüşün mahiyyəti də, xüsusiyyəti də dəyişkəndir, qədim dövrlərdə qəbuledilməz və yolverilməz hesab edilənlər bu gün həyəcan yarada bilər və əvvəllər qüsur hesab edilənlər isə bu gün millətin, məmləkətin dərmanına çevrilə bilər. Nə edə bilərik, dövrlərin, zamanların dəyişməsinin qoyduğu qanun budur və bundan qaça bilmərik!.. Amma əsas odur ki, "şər" (qüsur) varlığın məğzi deyil, yəni nəsnə deyil. Mövcud olan və ya yaradılan bir şeyin qaçılmazlığı həyatda və ya həyat dəryasında səbəb və səbəblərdən doğan bir hadisədir ki, cəmiyyət bunu heç də böyük "şər" hesab etmir, onu yumorla aradan qaldıra biləcəyini düşünür və beləliklə, subyekt ona qalib gəlməklə bir növ özündən razılıq hissini yaşayır, çünki yaramazlığı məğlub etmiş və bununla da xeyir şərə qalib gəlmişdir. Ona görə də, demək olar ki, yaradıcı potensial olaraq bu hadisəyə və onun öhdəsindən gəlməyə bir növ xoş niyyət hiss edir, gülür, başqalarını da güldürür.

Doğrudur, Aristotelə görə, biz faciədən heç cür həzz gözləməməliyik, yalnız ona xas olanı gözləmək lazımdır. Odur ki, şair faciədə onları təqlid edərək bizə rəğbət və qorxu hissi aşılamalıdır. Şəfqət və qorxu ilə onları təqlid edərək. Bu o deməkdir ki, o, hissləri təcəssüm etdirməli, hadisələrdə təzahür etdirməlidir (Elə orada, səh. 133). O, komediyaya belə bir funksiya qoymur, çünki o, sonuncunu insanları təqlid etmək üçün yararsız hesab edir, halbuki onların eybəcərliyinə qarşı tamamilə yox, dolğun nəsə, onun anlayışına görə, gülməli bir şey iyrəncliyin təkcə bir hissəsidir (Elə orada, səh. 118).

Ancaq bir şey danılmazdır ki, Aristotelin fəlsəfi nöqteyinəzərinə görə, faciə hissi narahatlıq və göz yaşı, komediya hissi isə gülüş doğurduqda, sonda insan mənəvi təmizlənməyə nail olur ki, bu da ümumilikdə estetik duyğunun teleoloji məqsədidir, çünki yumor və satira bir-biri ilə sıx əlaqəli anlayışlardır və nadir hallarda zamana və müxtəlif səbəb amillərinə görə bir-biri ilə növbələşirlər. Elə burada çox qısa şəkildə satiraya da toxunmalıyam ki, onun üçün mübarizənin əsas və ya yeganə silahı gülüşdür.

Satiranın səciyyəvi cəhəti amansız və qəhrəmancasına gülüşdür ki, o da, bağban kimi yeni tumurcuqlara yer açmaq üçün ölü və qurumuş budaqları kəsir. Onun əsas funksiyası inkar, əsas silahı gülüşdür (Павловский А., О сатире, Звезда, №6, 1955, стр. 169). Amma bu gülüş kinayəli, amansız xarakter daşımalıdır, "çünki insanların həyatında belə yaralara toxunur" (Писарев Д.И., Сочинения, т. II, M., 1958, стр. 398.) ki, onun da çıxarılması millətin və dövlətin xəstə bədənini xilas etmək üçün zəruri olan, nəhayət, satira ictimai konfliktlərin intensiv ifadəsi ilə səciyyələnir, onun məqsədi mövcud obyektiv hadisənin tam bir fəlakətidir. Müvafiq olaraq, o, kəskin ironiyadan, sarkazmdan istifadə edir və ifadənin xarakterik əlamətlərindən biri fakt və ya hadisələrin hiperbolizasiyasıdır. Məhz buna görə də satira ilə yonulan personajlar ideya boşluğu ilə seçilən eybəcər sifətlərdir. Eyni zamanda, satirikin obyektə gülüşü də konkret hədəfə çevrilməli, amansız və kəskin xarakter daşımalıdır.

Satira ilə yumoru bir-birindən ayırmaq üçün daha bir çox spesifiklikləri qeyd etmək olar, lakin bu, mənim indiki araşdırmalarımın əhatə dairəsi xaricindədir.

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə etdi:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 FEVRAL
2024-CÜ İL
№ 03 (198)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# ÖTƏN İL GÜRCÜSTANDA BAŞ VERMİŞ QƏZALAR NƏTİCƏSİNDƏ 442 NƏFƏR DÜNYASINI DƏYİŞİB, 7310 NƏFƏR XƏSARƏT ALIB



2023-cü ildə Gürcüstanda baş vermiş yol-nəqliyyat hadisələri nəticəsində 442 nəfər dünyasını dəyişib, 7310 nəfər isə xəsarət alıb.

Daxili İşlər Nazirliyinin (DİN) məlumatına görə, ötən il ölkədə 5594 yol-nəqliyyat hadisəsi baş verib. Onlardan ən çoxu paytaxtda qeydə alınıb.

Qəzaların ehtimal edilən səbəbi olaraq isə yüksək sürət, içkili vəziyyətdə nəqliyyat vasitəsini idarə etmək, qarşıdan gələn nəqliyyat zolağına keçmək, yaxud ötmə qaydalarının pozulması, piyadaların yolu keçmək qaydalarını pozması, məsafənin qorunmaması və başqa növ hərəkət qaydalarının pozulması qeyd olunur.

Qəza növlərinə gəldikdə isə DİN-in statistik məlumatlarına əsasən, 1855 hal hərəkət edən nəqliyyat vasitələrinin iştirakı ilə baş verib. Bu zaman 104 nəfər dünyasını dəyişib, 2898 nəfər isə xəsarət alıb. Həmin dövrdə piyada keçidində 1638 toqquşma faktı qeydə alınıb, nəticədə 95 nəfər dünyasını dəyişib, 1665 nəfər xəsarət alıb.

Qeyd edək ki, 2022-ci ildə ölkədə 5469 qəza baş verib, nəticədə 430 nəfər dünyasını dəyişib, 7517 nəfər xəsarət alıb.

*Mənbə: ipn.ge*

# ÖTƏN İL GÜRCÜSTANDA 56 UŞAQ ÖVLADLIĞA GÖTÜRÜLÜB



2023-cü ildə Gürcüstanda 56 uşaq övladlığa götürülüb, onlardan 4-ü fərqli ehtiyacı olan uşaqlardır. Trefikinq Qurbanlarına, Zərərçəkmişlərə Yardım Dövlət Agentliyinin statistik məlumatlarına əsasən, 2023-cü ilin göstəricilərinə görə, övladlığa götürülə biləcək uşaqların sayı 146 olub, həmçinin fərqli ehtiyacı olan uşaqların sayı 113 təşkil edib. Ötən il 1975 nəfər övladlığa uşaq götürmək üçün müraciət edib.

2022-ci ildə isə ölkədə övladlığa veriləcək uşaq statusu olan 154 uşaq olub ki, onlardan 109-u fərqli ehtiyacı olan uşaqlar olub. Həmin uşaqlardan 60-ı övladlığa götürülüb, onlardan da 2 nəfəri fərqli ehtiyacı olan uşaq olub. Övladlığa uşaq götürmək istəyənlərin sayı isə 2239 nəfər təşkil edib.

2020-2023-cü illərin göstəricilərinə nəzər saldıqda aydın olur ki, övladlığa uşaq götürənlərin və övladlığa veriləcək uşaqların sayı 2020-ci ildə daha çox olub. Belə ki, 2020-ci ildə 2555 nəfər övladlığa uşaq götürmək üçün müraciət edib, uşaqların sayı isə 196 nəfər təşkil edib. Onlardan 140-ı fərqli ehtiyacı olan uşaqlar olub. 2020-ci ildə 34 uşaq övladlığa götürülüb.

*Mənbə: etaloni.ge*

# KVEMO KARTLİDƏ 7475 MÜƏLLİM FƏALİYYƏT GÖSTƏRİR



Gürcüstan Milli Statistika Xidmətinin məlumatına əsasən, 2023-2024-cü tədris ilində ölkədə ümumilikdə 63665 müəllim fəaliyyət göstərir. Ən çox müəllim paytaxt Tbilisinin payına düşür. Ən az müəllim isə Abxaziyadadır.

Regionlara əsasən məktəblərdə işləyən pedaqoqların sayı bu cürdür:

Tbilisi – 14102 müəllim;
İmereti – 9751 müəllim;
Kvemo Kartli – 7475 müəllim;
Acara – 7100 müəllim;
Sameqrelo-Zemo Svaneti – 6206 müəllim;
Kaxeti – 5032 müəllim;
Samtsxe-Cavaxeti – 4390 müəllim;
Şida Kartli – 4321 müəllim;
Quriya – 2212 müəllim;
Mtsxeta-Mtianeti – 1742 müəllim;
Raça-Leçxumi – Kvemo Svaneti – 1006 müəllim;
Abxaziya – 328 müəllim;

*Mənbə: etaloni.ge*

# GÜRCÜSTANDA 14911 ŞAGİRD TƏHSİLİNİ DAYANDIRIB

Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2022-2023-cü tədris ilində ölkə miqyasında 14911 şagird təhsilini dayandırıb. Onlardan 8502-si oğlan, 6409-u isə qızdır. Ən çox – 3808 şagird 10-cu sinifdə təhsilini dayandırıb.

Qeyd edək ki, ötən illərlə müqayisədə təhsilini dayandıran şagirdlərin sayı artıb. Belə ki, 2021-2022-ci tədris ilində təhsilini dayandıran şagirdlərin sayı 8846, 2020-2021-ci tədris ilində təhsilini dayandıran şagirdlərin sayı isə 7050 nəfər təşkil edib.

*Mənbə: etaloni.ge*

| **Təhsilini dayandırmış şagirdlərin sayı *(tədris ili müddətində)*** | | **2022/2023-cü tədris ili** | |
|---|---|---|---|
| **Sinif** | **Qızlar** | **Oğlanlar** | **Ümumi** |
| 1 | 383 | 449 | **832** |
| 2 | 537 | 600 | **1137** |
| 3 | 461 | 547 | **1008** |
| 4 | 492 | 523 | **1015** |
| 5 | 459 | 573 | **1032** |
| 6 | 429 | 549 | **978** |
| 7 | 482 | 552 | **1034** |
| 8 | 451 | 495 | **946** |
| 9 | 395 | 497 | **892** |
| 10 | 1369 | 2439 | **3808** |
| 11 | 609 | 836 | **1445** |
| 12 | 342 | 442 | **784** |
| **Cəmi:** | **6409** | **8502** | **14911** |

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.